INTERNATIONAL NEWS SAFETY INSTITUTE

**Beynəlxalq Xəbərlər Təhlükəsizliyi İnstitutu (BXTİ)**

**Məqsədlər**

- Qlobal və yerli miqyasda bütün kütləvi informasiya vasitələrinin işçiləri üçün təhlükəsizlik proqramlarını işləyib hazırlamaq və dəstəkləmək;
- İşəgötürənlər ilə işçilər arasında sağlamlıq və təhlükəsizlik məsələləri üzrə sazişlərin bağlanmasını həvəsləndirmək;
- Təlim, məsləhət və ədəbiyyat vasitəsilə məlumati yaymaq;
- Təlim, avadanliq və sahə işi üçün ən yüksək təcrübənin tətbiq edilməsinə köməklik göstərmək;
- Təmin oluna biləcək sığorta da daxil olmaqla, təhlükəsizlik xidmətlərini tədqiq etmək, işləyib hazırlamaq və onların yayınmasına köməklik göstərmək;
- Risklərin azaldılması məqsədini güdən təşkilatların qlobal şəbəkəsini yaratmaq;
- Kütləvi informasiya vasitələrinin tədbirlərində sponsorların xəbərdar olmalarına yönəldilən təşəbbüsləri heyata keçirmək.

**İNSİ Kodeksi**

1. Həyatın qorunması və təhlükəsizlik birinci dərəcəli məsələlərdir. Ştatda və statdankənar işçilər bərabər səviyyədə xəbərdar olmalıdırlar ki, bir xəbərin izinə düşdükləri zaman hansısa əsassız risk qəbul edilməzdir və müsbət qarşılanmır. Xəbər agəntliklərinə təhlükəsizliyi rəqabətdən üstün saymaq təkidlə tövsiyyə edilir.

2. Hərbi əməliyyatlara və digər təhlükəli zonalara ezamiyyətlər könüllü olmalı, habelə bu cür ezamiyyətlərdə yalnız təcrübəli xəbərçilər və birbaşa onların rəhbərliyi altında işləyənlər iştirak etməlidir. Təhlukəli tapşırıqdan imtina nəticəsində karyeraya heç bir ziyan deyməməlidir. Qərargahda olan redaktor yaxud sahədə olan jurnalist bir-biri ilə müvafiq məsləhətləşmə apardıqdan sonra təhlükəli ezamiyyətə xitam verilməsi barədə qərar qəbul edə bilər.

3. Təhlükəli zonaya ezamiyyətə başlamazdan əvvəl bütün jurnalistlər və kütləvi informasiya heyəti döyüş mühiti və risklər barədə müvafiq təlim almalıdır. İşəgötürənlərlə təkidlə tövsiyyə edilir ki, bu cür təlimə məcburi xarakter verilsin.

4. İşəgötürənlər jurnalistlərə işləyəcəkləri ərazidə siyasi, fiziki və sosial şərait barədə son məlumatın tam şəkildə verilməsini, həmçinin onların Jeneva Convensiyalarında və humaintar hüququ üzrə digər əsas sənədlərdə təsbit olunmuş hərbi münaqişənin beynəlxalq qaydaları barədə xəbərdar olmasını təmin etməlidir.

5. İşəgötürənlər təhlükəli yerlərə ezamiyyətə göndərilən bütün ştatda və ştatdankənar işçiləri ehtimal olunan təhlükəyə münasib olan effektiv təhlükəsizlik avadanlığı, habelə tibbi və qoruyucu vasitələri ilə təmin etməlidir.

6. Bütün jurnalistlərə hərbi əməliyyatları gedən ərazilərdə işlədikləri zaman şəxsi zədələnmə və ölümü əhatə edən şəxsi sığorta verilməlidir. Ştatlı və ştatdankənar işçilər arasında ayrıseçkiliyə yol verilməməlidir.

7. İşəgötürənlər fəlakət hadisələrə düşmüş jurnalistlər üçün etimadlı məsləhət almağa imkan yaratmalı, menecerləri post-travmatik gərginliyini tanimağa öyrətməli, habələ təhlükəli yerlərdə çalışan jurnalistlərin ailələrinə sevdikləri insanların təhlükəsizliyi üzrə vaxtında məsləhət verməlidir.

8. Jurnalistlər bitərəf müşahidəçilərdir. Öz iş borcunu yerine yetirərkən kütləvi informasiya vasitələrinin heç bir üzvü odlu silah daşimamalıdır.

9. Hökumət orqanları, habelə bütün hərbi və təhlükəsizlik güvvələrinə jurnalistlər fəaliyyət göstərdikləri ərazilərdə, həmin güvvələri müşayiət edib-etməmələrindən asılı olmayaraq, onların təhlükəsizliyinə riayət etmək təkidlə tövsiyyə edilir. Həmin güvvələr lazımsız dərəcədə hərəkətin sərbəstliyini məhdudlaşdırmamalı və ya kütləvi informasiya vasitələrinin məlumatı toplamaq və yaymaq hüququnu pozmamalıdır.

10. Təhlükəsizlik güvvələri öz qanuni işini yerinə yetirən jurnalistəri heç vaxt incitməməli, qorxutmamalı və ya onlara fiziki hücum etməməlidir.

**Təhlükəsizlik üzrə 16 addım**

1. Fiziki və psixoloji cəhətdən hazır olun. Mümkündürsə, ezamiyyətinizdən əvvəl birinci yardım üzrə təlim daxil olmaqla Döyüş Mühiti kursunda iştirak edin.

2. Münaqişə zonaların əksəriyyəti hec olmazsa qacmaq, piyada uzun məsafələri qət etmək və narahatlıqlara dözmək qabiliyyətinin olmasını tələb edir. İçində təmiz iynələr olan əsas tibbi ləvazimat kisəsini daşıyın. Allergiya, qan qrupu və s. məlumatı əks etdirən bəynəlxalq miqyasda taninan qolbağı geyinin.

3. Ezam edildiyiniz yerin ve oralı əhalinin, habelə müvafiq münaqişənin tarixini bilin. Yerli dildə bir neçə faydalı söz öyrənin, ən əsası «xarici press» və «jurnalist» sözlərini. Vacib ola biləcək yerli əl-qol hərəkətlərinin mənasını bilin.

4. Münaqişə zonada tək hərəkət ətməyin. Avtomobil yolu ilə hərəkət etdikdə, ərazini və problem yerlərini yaxşi bilən təhlukəsiz və məsuliyyətli sürücüdən istifadə edin. Əgər hücumu cəlb etməyəcəksə, öz avtomobilinizi kütləvi informasiya agentliyinin nəqliyyat vasitəsi kimi nişanlayın. Mümkündürsə konvoya sıx hərəkət edin. Əgər nizami ordu patrulunu müşayiət etmirsinizsə, hərbi və ya hərbi tipli nəqliyyat vasitələrindən istifadə etməyin. Avtomobilinizin düz işləməsini və yanacaqla dolu olmasını yoxlayın. İsti hava şəraitində müntəzəm olaraq təkələrdərki təzyiqi yoxlayın, çünki təkərin partlaması fəlakətlə nəticələnə bilər.

5. Səfərə çixmamışdan əvvəl mümkün təhlükə barədə yerli idarəetmə orqanları və rezidentləri ilə məsləhətləşin. Təhlükəsiz intervallarda yolun qabaqdakı hissəsini yoxlayın. Qərarqahınızı və bazada qalan həmkarlarınızı yönəldiyinz yer və gözlənilən qayıtma barədə məlumat verin. Tez-təz əlaqə saxlayın. Hərbi kimi qiymələndirilə biləcək nişanları olan xaritələrin daşınmasından ehtiyatlı olun.

6. Tanimadığıniz şəxslərlə ictimai yerlərdə görüşün və işlədiyiniz ofisə və ya etibarli həmkarlarınıza öz planlarınızdan danışın. Potensial tehlükəyə tək düşməməyə çalışın. Təhlükə zonasına daxil etməzdən əvvəl təcili və etibarli çıxış yolunu planlaşdırın.

7. Heç vaxt silah daşımayın və ya silah daşıyan jurnalistlər ilə səfərə çıxmayın. Şəkil çəkərkən ehtiyatlı olun. Şəkil çəkməzdən əvvəl əsgərlərin razılığını alın. Şəkil çəkməsi barədə yerli hüsusiyyətləri bilin.

8. Özünüzlə şəkilli şəxsi vəsiqənizi daşıyın. Özünüzü jurnalistdən başqa diqər şəxs kimi təqdim etməyin. Tələb edildikdə özünüzü dəqiq təqdim edin. Cəbhənin iki tərəfində çalışırsınızsa, hansısa bir tərəfə digər tərəf haqqında heç vaxt məlumat verməyin.

9. Özünüzlə siqaret və konfet kimi digər paylana biləcək şeylər gəzdirin. Hərbçilər və ya yerli əhali tərəfindən hədə-qorxu gəlmə görünürsə rahat olmağınızı göstərməyə çalışın. Dostyana hərəkətlər edin və gülümsəyin.

10. Fövqəladə vəziyyət üçün vəsait və şəxsi vəsiqənizin ehtiyat nüsxəsini beldə bağlanan pul kisəsi kimi gizli yerdə daşıyın. Rüşvət məbləğini hazır saxlayın.

11. Fövqəladə vəziyyət üçün telefon nömrələrini əlinizin altında saxlayın. Həmin nömrələr peyk yaxud mobil telefonlarına, mümkündürsə surətli yığma rejimində proqramlaşdırılmalıdır. Xəstəxanaların yerləri və onların texniki qabiliyyətlərini bilin.

12. Ən effektiv sığınacaq tapmaq üçün, münaqişədə ən çox istifadə olunan silah növləri, onların uzaqvurma qabilliyyəti haqqında məlumat ilə tanış olun. Daxil olan atəşi arxanızdan atılan atəşdən ayıra bilin. Fuqasın ve digər topçuluq sursatının nəyə oxshamasını bilin. Tərk edilmiş silah və sərf edilmiş sursata toxunmayın.

13. Əgər müharibə mühbiri kimi akkreditasiya olunmamısızsa ve xüsusi paltar qeyinmək məcbur deyilsinizsə, mülki paltarı qeyinin. Hərbi tipli qeyimdən istifadə etməyin. Parlaq obyektlərin gəzdirməsindən yan keçin və linzalar ilə çox ehtiyatli olun. Günəş işığının linzadan əks edilməsi silah odu kimi görünə bilər.

14. Dəbilqə, zireh, və qaz maskaları qeyinməyə hazır olun. Yürüşlər üçün möhkəmləndirilmiş beysbol tipli papaq və paltarın altında yüngül müdafiə vasitələrindən istifadə edin.

15. Öz həm beynəlxalq, həm yerli hüquqlarınızı bilin. Jeneva Konvensiyasının müharibə zonalarında olan mülki şəxslərə aid olan müddəalarını bilin.

16. Yüksək təhlükəni yaşamış və dəhşətli hadisələrə şahid olmuş jurnalistlər sonrakı bir neçə həftə ərzində travma ilə bağlı stress keçirə bilərlər. Məsləhət almaq üçün utanmayın.